# 15 sentyabr Bilik Günüdür



***Ölkəmizdə yeni dərs ili başlayır. Bu il təkcə birinci siniflərə gedənlərin sayı 150 min nəfərdən çoxdur. Ümumilikdə isə 2015-2016-cı dərs ilində ölkənin ümumtəhsil mərkəzlərində 1 milyon 370 minə yaxın şagird təhsil alacaq. Bakı şəhəri üzrə 1-ci sinfə gedənlərin sayı 42 723 nəfər, ümumi təhsil məktəblərində təhsil alacaq şagirdlərin sayı isə 347 891 nəfərdir.***

Bu gün Azərbaycanın çoxmilyonlu təhsil ictimaiyyətinin bayramı, Bilik Günüdür. Azərbaycan təhsilinin bugünkü inkişafı öz mənbəyini ötən əsrin 70-ci illərindən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə aparılan uzaqgörən və məqsədyönlü siyasətdən alıb. O vaxtdan başlayan qlobal miqyaslı təhsil quruculuğu sonrakı inkişaf üçün güclü təməl olub. Bu fikri faktlar da təsdiqləyir. Təkcə onu qeyd etmək kifayətdir ki, 1969-1982-ci illərdə məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1600-dən 1875-ə çatıb. Ulu Öndərin "Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərdən pulsuz istifadə etməyə keçmək haqqında" Sərəncamı da dahi rəhbərin Azərbaycan xalqına, ümumilikdə təhsilə böyük töhfəsi idi.

Ümummilli lider Heydər Əliyev müəllimlərə də hər zaman sonsuz hörmətlə yanaşıb. O illərdə çox sayda təhsil işçisi SSRİ-nin orden və medallarına, fəxri adlara layiq görülüb. Azərbaycanda ali təhsil də ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra inkişafa qədəm qoyub. Təsadüfi deyil ki, ötən əsrin 70-80-ci illərində 5 yeni ali məktəb yaradılıb. Müdrik dövlət başçısının daha bir xidməti həmin illərdə azərbaycanlı gənclərin keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərinə oxumağa göndərilməsi idi. O vaxt 15 mindən çox gənc Azərbaycandan kənarda ali təhsil alıb. Orta və ali təhsillə yanaşı Ulu Öndərin yaratdığı Cəmşid Naxçıvanski adına ilk hərbi məktəb isə ölkəmizdə milli hərbi kadr hazırlığı üçün baza rolunu oynadı. Məktəb tikintisi, xaricdə təhsil, peşə təhsilinə diqqət, şagirdlərə dərsliklərin pulsuz verilməsi yenidən reallaşdı, büdcədən təhsilə ayrılan vəsait ildən-ilə çoxaldı. 1993-2003-cü illərdə təhsil işçilərinin əməkhaqqı 9 dəfə artırılıb. Hər il ən yüksək bal toplayan gənclərə xüsusi Prezident təqaüdü, istedadlı gənclərə fəxri təqaüdlərin verilməsi də təhsilə qayğısının bariz nümunəsi idi. 1993-2003-cü illərdə 6 yeni akademiya təsis edildi, özəl ali məktəblər yaradıldı...

Son illərdə Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub. Prezident İlham Əliyevin qayğısı, həmçinin Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr Ulu Öndərin təhsil siyasətinin uğurlu davamının göstəricisidir. Bir faktı xatırlatmaq kifayətdir: ölkəmizdə təhsil sisteminin bütün pillələri üzrə Dövlət Proqramları uğurla həyata keçirilir. Bu, bir həqiqətə - Prezident İlham Əliyevin təhsili dövlət siyasətinin prioritetlərindən biri kimi diqqətdə saxlamasına söykənir. Azərbaycan təhsilində ən uğurlu nəticələrdən biri məktəb tikintisinin geniş vüsət almasıdır. 2003-cü ildən indiyədək ölkəmizdə iki mindən çox yeni məktəb binası tikilib. O cümlədən bir sıra məktəblər üçün əlavə korpuslar tikilib, əsaslı təmir olunub. Yeni məktəblərinin tikintisi, əlavə korpusların inşası, onların əsaslı təmiri, müasir avadanlıqlarla təminatı, infrastrukturunun yeniləşdirilməsi nəticəsində, ümumilikdə, ölkə üzrə 1 milyondan çox şagirdin təlim şəraiti yaxşılaşdırılıb. Son illərdə məktəb tikintisi sahəsində həyata keçirilən proqramlar sayəsində ikinövbəli məktəblərin, eyni zamanda ikinci növbədə təhsil alan şagirdlərin faizi aşağı düşüb. Bu iş indi də davam edir. 2012-2013-cü dərs ili ərəfəsində ümumilikdə 50 min şagird yerlik 167 yeni orta məktəb tikilib, 103 məktəb əsaslı təmir edilib, 21 məktəb üçün 5 min 104 şagird yerlik əlavə korpuslar inşa olunub, yeni avadanlıqlarla təchiz edilib. "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda tədris ocaqlarının əsaslı təmiri və yenidən qurulması ilə bağlı bu il üçün nəzərdə tutulan tədbirlər planına uyğun olaraq paytaxt Bakıda da təhsil müəssisələri əsaslı təmir edilib.

Prezident İlham Əliyevin yeni dərs ili ərəfəsində təzə tikilən və əsaslı təmir olunan təhsil ocaqlarında olması, işlərin gedişi ilə yaxından tanışlığı, tapşırıq və tövsiyələrini verməsi dövlət başçısının bu sahəni hər zaman diqqətdə saxlamasının göstəricisi olmaqla yanaşı, bu istiqamətdə görülən işlərin keyfiyyətinə də müsbət təsir edir. Eyni zamanda, şagirdlərin də dərsliklərlə pulsuz təminatı üçün də yeni dərs ili ərəfəsində lazimi tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin Sərəncamı ilə "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" mükafatlarının təqdimatı da məktəb və müəllimin statusunun yüksəldilməsinə xidmət edir. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində gənclərin dünyanın müxtəlif ölkələrinin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi istiqamətində də işlər uğurla davam etdirilir. Təsadüfi deyil ki, onların bir qismi təhsilini başa vuararaq artıq Vətənə qayıdır.

Təhsilin inkişafında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri də xüsusi vurğulanmalıdır. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində son illərdə ölkəmizdə müasir tələblərə cavab verən 400-ə yaxın məktəb tikilib və yenidən qurulub, həmçinin 40-a yaxın uşaq evi və internat məktəbi əsaslı təmir və bərpa olunub, lazımı avadanlıqla təchiz edilib. Fondun dəstəyi ilə əyani tədris vəsaitləri çap edilib. "Təhsilə dəstək" layihəsi çərçivəsində yeni dərs ili ərəfəsində məktəblilərə çanta və dərs ləvazimatının paylanması isə artıq ənənəyə çevrilib. Fond 2004-cü ildən başlayaraq hər il qaçqın və məcburi köçkün ailələrindən olan uşaqları, eləcə də xarici ölkələrdə yaşayan məktəbli soydaşlarımızı yeni dərs ilində yeni dərs vəsaitləri ilə sevindirir. Gürcüstan, Rusiya Federasiyası, Hollandiya, Türkiyə, Rumıniyada yaşayan məktəbli soydaşlarımız da belə hədiyyələr alırlar...

Sentyabrın 15-i ölkəmizin bütün ümumtəhsil məktəbləri və ali təhsil ocaqlarında yeni dərs ili başlayır. Qeyd edək ki, 2004-cü ilə qədər həmin gün sentyabrın 1-nə təsadüf edirdi. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 avqust 2004-cü il tarixli Fərmanı ilə ölkəmizin bütün təhsil müəssisələrində dərslərin sentyabrın 15-dən başlanması qərara alınmış, beləliklə, həmin gün Bilik Günü elan edilmişdir.

**Şəfiqə Dadaşova,**
***"İki sahil"***